# GÖYƏRÇİN

1
2025
İSSN-0207-4710





# AĞILLI HƏKİMİN NAĞILI

*(Ərəb xalq nağılı)*

İran şahlarından biri o qədər kök idi ki, hərəkət eləyə, normal nəfəs ala bilmirdi. Köklük onun sağlamlığına böyük təhlükə yaradırdı. Köklükdən əziyyət çəkən şah ölkədəki bütün həkimləri toplayıb, onlardan tələb etdi ki, məni sağaldın. Ancaq həkimlər nə qədər dava-dərman eləsələr də, bir xeyiri yox idi. Şah arıqlamaq əvəzinə gündən-günə kökəlməkdə davam edirdi.

Bir gün onun yanına ağıllı bir həkim gəldi. Ədəb-ərkanla baş əyib dedi:

- Ey şah, mən Sizi sağaldacağam. Ancaq mənə üç gün vaxt verin ki, hansı faydalı dərmanı seçəcəyimi müəyyənləşdirə bilim.

Şah razılaşdı. Üç gün keçəndən sonra həkim ona dedi:

- Şahım, mən Sizin həyat tərzinizi diqqətlə müşahidə elədim. Acı bir həqiqəti Sizə çatdırmalıyam. Sizin cəmi-cümlətanı qırx gün ömrünüz qalıb. İstəyirsiniz məni həbs edin, is-təyirsiniz öldürün. Lakin bunların heç biri Sizi ölümün pəncəsindən xilas edə bilməyəcək.

Qəzəbli şah əmr etdi ki, həkimi həbs eləsinlər. Özü isə hər gün, hər an ölüm haqqında düşündü. Yeyib-içməyi, əylənməyi yadından çıxardı. Qayğı və kədər onun ürəyini üzürdü. Şah tənhalığa qapıldı, insanlardan uzaq düşdü. Fikir və xəyal, kef məclislərindən uzaq düşmək gündən-günə onun arıqlamasına səbəb olurdu.

Qırx gün keçəndən sonra şah əmr etdi ki, həkimi zindandan çıxarıb onun hüzuruna gətirsinlər.

Əmr dərhal yerinə yetirildi. Şah hirsli-hirsli həkimə dedi:

- Sən deyirdin ki, mən qırx gündən sonra öləcəyəm. Ancaq gördüyün kimi ölməmişəm, sağam, öz işimin başındayam. Yalan söylədiyinə görə səni mütləq edam etdirəcəyəm.

Həkim mənalı-manalı gülümsünüb dedi:

- Şah sağ olsun, mənim başqa çarəm yox idi. Ona görə Sizi arıqlatmaq, sağaltmaq üçün hiylə işlətdim. Doğrusu, Sizi arıqladıb sağaltmaq üçün başqa dərman tapa bilmədim. Çox şükür ki, hiyləm baş tutdu. Fikir-xəyal, kef məclislərindən uzaq düşüb axirət haqqında düşünmək Sizi öz sağlamlığınıza qovuşdurdu.

Ağıllı həkimin sözləri şahı düşündürdü. Gördü ki, həkim tamamilə haqlı imiş.

Şah ağıllı həkimi mükafatlandırdı.

**Tərcümə edib uşaqlar üçün işləyən: R.Y.Əliyev**

